**UOT 94(479.24)**

# LULLUBİLƏRİN QONŞULARI İLƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİ TARİXİNDƏN

***Allahverdi Nüsi oğlu Əlimirzəyev***
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu***
***alimirzoev.60@ mail.ru***

**Açar sözlər:** *mixiyazılı mənbələr, lullubilər, qutilər, Akkad şahlığı, Anubanini, Simurru şahlığı, Aşşur şahları.*

# ИЗ ИСТОРИИ ВЗАИМООТНОШЕНИЙ ЛУЛЛУБЕЕВ С СОСЕДНИМИ НАРОДАМИ

***Аллахверди Алимирзоев***

**Ключевые слова:** *клинописные источники, луллубеи, кутии, Аккадское царство, Анубанини, царство Симурру, ассирийские цари*

*Луллубеи были одними из древнейших насельников Приурмийской зоны Азербайджана. Во второй половине III тыс. до н.э. аккадские цари Саргон I и Нарам-Суэн одержали победу над военными коалициями, в составе которых принимали участие также луллубеи Симуррума (в долине Сеймерре, в Луристане) и Луллубума (восточнее Сулеймании, между озерами Урмия и Зерибор). Луллубеи принимали участие в завоевании Аккада кутиями, но вскоре восстали против их царя Эрридавазира. Шумерский царь Шульги 9 раз предпринимал военные походы против луллубеев, после чего они стали вассалами правителей города Ур. В документах того же периода и следующего тысячалетия луллубеи упоминаются среди работников в разных отраслях хозяйства месопотамских городов. Военные стычки луллубеев с соседями хурритами сменялись товарообменом. В хурритском городе Нузи высоко ценились рабыни луллубейского происхождения. С 880-х годов до н.э. ассирийские цари планомерно начинают присоединять луллубейские земли к своим владениям. В западной части этих земель под старым названием «Замуа» была создана ассирийская провинция, а восточная часть (Мазамуа или «Внутренняя Замуа») позже была присоеденена к Манне. Наименование луллубеев на языке урартских соседей в значении «враг» стало именем нарицательным.*

# FROM THE HISTORY OF THE RELATIONSHIP LULLUBIANS WITH NEIGHBORS

***Allahverdi Alimirzayev***

**Key words:** *cuneiform sources, lullubians, gutians, kingdom of Akkad, Anubanini, kingdom of Simurru, Assyrian kings*

*Lullubians was one of the most ancient inhabitants of the Urmia basin of Azerbaijan. In the second half of the 3rd millennium BC. the Akkadian kings Sargon I and Naram-Suen defeated the military coalitions, which also included Lullubians of Simurrum (in the valley of Seymerre, in Luristan) and Lullubum (east of Suleimaniya, between the lakes Urmia and Zeribor). The Lullubians took part in the conquest of Akkad by the qutians, but soon rebelled against their king Erridavazir. The Sumerian king Shulgi nine times organized a military campaign against the lullubians, after which they became vassals of the rulers of the city of Ur. In the documents of the same period and the next millennium, lullubians is mentioned among workers in various sectors of the economy of Mesopotamian cities. Military clashes lulubians with neighbors Hurrians were accompanied with the exchange of goods. In the Hurritan city of Nuzi Lulubian slaves were highly valued. From the 880s BC Assyrian kings systematically begin to join the land of Lullubians to Assyria. In the western part of these lands, under the old name Zamua, is created the Assyrian province, and the eastern part (Mazamua or Inner Zamua) was later joined to Manna. The name lullubians in the language of the urartians meaning "enemy".*

E.ə. III minilliyin ikinci yarısında əhalisi əsasən, lullubilərdən ibarət olan bir neçə çarlıq mövcud idi. Bunlardan ən şimalda yerləşəni – Lullubum, qonşuluqdakı torpaqların istilası hesabına ərazisini genişləndirməklə yanaşı, güclü Akkad dövlətinin işğalçılıq siyasətinə qarşı mübarizə aparan hərbi ittifaqlara qoşulurdu. İranın qərbində, Zöhab şəhəri yaxınlığında, Sarıpuldakı Miankal qayası (qədim adı Batir) üzərinə həkk olunmuş akkaddilli mətndən bəlli olur ki, Anubanininin hakimiyyəti dönəmində Lullubum dövləti xeyli genişlənərək "Yuxarı dənizdən" (Urmiya gölü) "Aşağı dənizə" (Zeribor gölü) qədər olan ərazini əhatə edirdi [16, p.704-706, E4.18.1; 4, s.21-23; 2, s.99]. Mətni müşayiət edən təsvirdə (bax: şəkil 1) Anubanini sol əlində kaman, sağ əlində isə dəyənəklə (və ya balta) silahlanmış halda verilib. Ayağı ilə məğlub etdiyi düşməni tapdalayan Anubanininin qarşısında ona iki əsir gətirən hərb

ilahəsi İştar təsvir olunub; ikinci cərgədə qolları arxadan bağlanmış daha 6 əsirin təsviri verilib. Əsirlər təhqiramiz formada lüt təsvir olunublar. Yalnız dairəvi zolaqlı baş geyiminə əsasən onların icma rəhbərləri olduğunu ehtimal etmək olar.



Şəkil 1. Anubaninin barelyefi

Anubaninin antiakkad hərbi ittifaqında iştirakı Naram-Suenin «Qələbə stelası»nın (bax: şəkil 2) mətni ilə də təsdiqlənə bilər. Mətnin oxunuşu çətinlik yaratmasa da, fraqmentar olduğundan məzmunu müxtəlif cür izah olunur. Mətndə salamat qalan **A[…] Si-dur ú Sa-tu-ni Lu-lu-bi-im KI. ip-hu-ru-[ma]…** ifadəsini «A[nubanini], Sidur və Satuni Lullubim torpağında toplan[dılar]…» kimi izah etmək olar. Fraqmentin fərqli tərcümələri də mövcuddur [4, s.23-24; 2, s.100]. Mətn Naram-Suenin lullubilərlə döyüş səhnəsinin və qələbəsinin qabartma təsvirləri ilə müşayiət olunur.

Naram-Suenin şimal tayfaları ilə müharibələri bir-birilə üzvi surətdə bağlı olan didaktik eposlarda, daha dəqiq desək, əfsanələrin sonralar tərtib olunmuş (bəlkə də orijinallardan üzü köçürülmüş) dublikatlarda əksini tapıb. Bunlardan biri elm aləmində "Naram-Suen haqqında əfsanə" (və ya "Kuta əfsanəsi") adı ilə tanınır. Eposun məlumatına görə Naram-Suenin hakimiyyəti zamanı 360 minlik "manda ordusu" (akkadca **umman manda**) ciddi müqavimətlə qarşılaşmadan Anadoludakı şəhərləri (Buruşhanda, Buranşu, Buhlu) zəbt edir və Şubat-enlil adlanan yerdə (indiki Suriyanın şimalında Təll-Leylan) hərbi düşərgələrini qururlar. Bir müddətdən sonra bu ordu Subartunu, Kutiumu və Elamı viran qoyaraq, Maqan və Meluhha ölkələrinə yetişir. Bu ordunun başında "Anbanini" adlı çar dururdu. Eposa tarixi mənbə kimi müraciət edən tədqiqatçılar onu Sarıpuldakı qayada kitabəsini həkk etdirən Lullubi ölkəsinin şahı Anubanini ilə eyniləşdirirlər [2, s.99]. Eposda bu hökmdarın zövcəsi Melili və "manda ordusuna" komandanlıq edən 7 oğlu (Memandah, Medudu, [...]tapiş,

Kutadada, Baldahdah, Ahudanadih, Hurrakidu) xatırlanır. Epos müəllifi onları "yarasa bədənli, qarğa sifətli" görkəmdə təsvir etsə də, ilahə Belet-ilinin "gözəl xəlq etdiyi" və ilahə Tiamatın "əmizdirdiyi bəndələr" kimi təqdim edir. Sonda Naram-Suen düşmən koalisiyaya qalib gəlir [33, pp.264-336].



Şəkil 2. Naram-Suenin "Qələbə stelası"

Antiakkad hərbi koalisiyasının tərkibi haqqında "Naram-Suen əleyhinə böyük üsyan" adlanan başqa bir əfsanədə də məlumat verilir. Lakin əfsanənin yazıldığı gil lövhə zədəli olduğundan Qulaan adlı quti hökmdarı istisna olmaqla koalisiya üzvü olan digər 16 ölkənin (Hahhum, Martu, Der, Kaşşu, Meluhha, Aratta, Marhaşi, Turukku, Elam və s.) şahlarının isimlərinin yalnız son hecaları qalıb. Mənbədə "Lullim ölkəsinin" çarının ismindən son heca qalıb: **[...]-a-el** [33, p.249-250]. Eposun digər variantında "Lullu ölkəsinin" şahının adı **La-pa-na-i-la** formasında qeydə alınıb. Həmin variantda Kutiumun (qutilərin ölkəsi) şahının adı **An-ma-na-an** kimi göstərilir.[1] O dövrün mixi yazı sistemində -**MA**- və -**BA**- hecalarını ifadə edən işarələr arasındakı qrafik oxşarlıq bu ismi **An-ba-na-an** kimi oxumağa və "manda ordusunun" çarı Anubanini ilə eyniləşdirməyə əsas verir. Bütün bu mənbələrin məlumatlarını ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, Antiakkad koalisiyasının birinci məğlubiyyətindən sonra "manda ordusunun" şahı Anubanini özünü Kutiumun hökmdarı elan etmiş, qısa müddətdən sonra isə Lullubum taxtını da ələ keçirmişdi.

[1] Grayson A., Sollberger E. L'Insurrection générale contre Narām-Suen. // RA, 1976, 70, pp. 103-128.

Akkad dövrünün orijinal hesabat sənədlərində Şumer şəhərlərində dövlət təsərrüfatlarında çalışan lullubilərə ərzaq məhsullarının verilməsinə dair qeydlər var və onların məlumatları lullubilərin Mesopotamiya sakinləri ilə dinc şəraitdə də münasibət qurduqlarını göstərir.[2]

Lullubilərin kutilərlə hərbi-siyasi ittifaqı sonda Akkad dövlətinin süqutunu və Şumer şəhər-dövlətlərinin işğalını şərtləndirdi. E.ə. XXII əsrin ortalarında bu ittifaqın daxilində parçalanma müşahidə olunur. Qutilərin hökmdarı Erridupizirin kitabələrindən (bax: şəkil 3) məlum olub ki, Simurru şahlığının lullubi mənşəli şahı İnima-Nişba Lullubum və Urbilum (indiki İraqda Erbil) hakimlərinin dəstəyi ilə qutilərin hakimiyyətinə qarşı üsyan qaldırır [1, s.27-29; 4, s.16]. Nəticədə Kutium dövləti 20 il lullubi mənşəli hökmdarların (İnima-Nişba və Yarlaqanın) nəzarəti altına keçir. Kuti hökmdarları isə bu zaman Arrapha şəhərindən işğal altında olan Şumer şəhərlərini idarə edirdilər [5, c.124-125].



Şəkil 3. Lullubilərin üsyanı

E.ə. XXI əsrin birinci yarısında III Ur-Şumer dövlətinin hökmdarı Şulgi dəfələrlə Lullubum və Simurruma hərbi yürüşlər etməklə burada məskunlaşan

2 Bu sənədlərdə, əksər hallarda, lullubi işçilər peşə fəaliyyətləri və daşıdıqları isimləri göstərilmədən etnik adları ilə – **lu-lu**, qeydə alınıblar. Bir hesabatda onlardan birinə 2 GUR (təxminən 300 litr) arpa (şumercə **še**) ödənilməsinə dair qeyd var [18, pp.110, 160, 173-174, texts №№ 219, 315, 335]. Lullubi çobanın xatırlandığı iki sənəddə keçi və qoyunların, eləcə də saxsı qabların (görünür onlarda bu heyvanlardan alınan süd məhsulları saxlanırdı) qeydiyyatı aparılıb [19, pp.56, 84, texts №№ 79б, 147].

lullubiləri itaətdə saxlamağa müvəffəq olmuşdur. Onun varislərindən Şu-Suenin (e.ə. 2036-2028) "Qələbə kitabəsi"ndən məlum olur ki, lullubilərin "ölkəsi" o dövrdə elamlıların yaratdığı Simaşki konfederasiyasının tərkibinə qatılmışdı və Vabartum adlı baş kahin (şumerdilli mətndə **ensi**) tərəfindən idarə olunurdu [17, p.311, E 3/2. 1.4.5].[3] Elamın paytaxtı Suzda e.ə. II minilliyin birinci yarısında tərtib olunmuş hüquqi sənədlərin birində Damkiyanın (ad Akkad mənşəlidir) oğlu Lulu xatırlanır [11, 1980, c.4-5].

Sonrakı dövrlərin mətnləri Lullubumda eyni vaxtda bir neçə şahın hakimiyyətdə olduğundan xəbər verir. Şuşarra (İraqın şimal-şərqində, Raniyə düzündə yerləşən Təll-Şemşara) məktublarının birində «Lullum ölkəsinin şahları» ifadəsinə təsadüf olunur [15, № 63].[4] Şuşarra şəhər-dövlətinin e.ə. II minilliyin birinci yarısı ilə tarixlənən sənədlərində lullubilərin Urmiya gölündən cənub-qərbdəki ərazilərdə (İraqın şimal-şərqində Raniyə düzü, Cənubi Azərbaycanda Uşnu-Sulduz vadisi) baş verən hadisələrə müdaxilə etmələrinə, turukkularla və hurrilərlə əlaqələrinə dair xeyli məlumatlar mövcuddur [1, №№ 15. 17, 19, 20]. Şuşarrada məskunlaşan turukkular yaşayış məskənlərini və məhsullarını qutilərin qarətindən qorumaq üçün lullubilərin hərbi yardımına arxalanırdılar. Şuşarra məktublarının birində lullubi mənşəli muzdlu döyüşçülərə etdikləri yardıma görə qızıl və gümüş ödənilməsindən söhbət gedir [15, № 69].

Hurrilərlə ərzaq mübadiləsi səviyyəsində olan dinc münasibətlər isə bəzən hərbi münaqişələr və əsirlərin ələ keçirilməsi ilə əvəzlənirdi [25, s.380; 10, c.131-132]. Hurrilərin Nuzi şəhərində lullubi mənşəli qadın qullara böyük tələbat var idi.[5] Bəzən hüquqi məsələlərin həlli zamanı ittihamçıya dəyən zərər, kompensasiya kimi, «Nullu ölkəsindən» əsir alınmış qadınla ödənilirdi [10, c.132; 13, c.31]. Nuzinin hurri sakinləri övladları olmadıqda lullubi mənşəli qul qadınla izdivaca girə bilərdi və bu izdivacdan doğulan uşaqlar şəhərin vətəndaşları ilə eyni hüquqa malik idilər [10, c.132]. Bəzi hallarda lullubilər qarət məqsədi ilə hurri məskənlərinə hücumlar edir, dinc əhalini girov götürürdülər.[6]

---

[3] Mətndəki **Wa-ba-ar-tum** ismi (-**um** sonluğu akkad dili üçün səciyyəvidir) Elamin paytaxtı Suzdan tapılmış Simaşki çarlarının siyahısındakı **İa-ba-ra-at** ismi ilə eyniləşdirilə bilər [30, p.144].

[4] Hurri mətnlərində **ibri ewerne URU Lulluenewe** " Lulluların şəhərinin şahlar şahı" [26, s.166].

[5] Lullubi ölkəsindən daxil olan bir qulun dəyəri 30 **su** (təxminən 170 qram) gümüş təşkil edirdi [29, s.167].

[6] Məsələn, Nuzi şəhərində tərtib olunmuş sənədlərin birində deyilir: "…Şehal-Teşubun ailə üzvləri oğurlanıb, Lulu ölkəsinə satılıb…Sən də Nuzi şəhərindən Lullu ölkəsinə gedənlərin bir neçəsini girov kimi saxla, lakin bu məktubu və möhürü onlara vermə, özümə qaytar...". [31, p. 60].

Boğazköydən (Het dövlətinin paytaxtı Hattuşaş; Ankaradan 170 km şərqdə) tapılmış hurridilli mətnlərdə «İmmaşkun – Lullu <ölkəsinin> şahlar şahı» ifadəsi ilə qarşılaşırıq [25, s.357].[7] Het mifoloji mətnlərindən məlum olur ki, Anadolunun aborigen sakinləri olan hatların dini inanclarında yeraltı dünyanın tanrısı lullubilərin etnik adına uyğun olaraq Leluvani adlanırdı [8, c.45]. Sonralar Anadoluda məskunlaşan yunanlar qonşuları olan aborigenlərin bəzilərini **λελεγες** adlandırırdılar [7, c.186; 3].

E.ə. II minilliyin ikinci yarısında I Adadnerari, I Navuxodonosor, I Salmanasar, I Tukulti-Ninurta, Aşşur-reş-işi və I Tiqlatpalasarın orduları lullubilərin kaşşular, qutilər və subarlarla yaratdıqları hərbi ittifaqlarını dəfələrlə məğlubiyyətə uğratmışlar [26, s.166-167; 4, s.19]. Məsələn, I Adadnerarinin (e.ə. 1307-1275) kitabələrinin birində (bax: şəkil 4) deyilir: "Adadnerari, parlaq hökmdar, qəhrəman, ilahilərin canişini, şəhərlərin təməlini qoyan, kaşşuların, qutilərin, lullumilərin və subarlıların qüvvətli ordusunu qıran, yuxarıda və aşağıda bütün düşmənləri məhv edən" [4, s.19].



Şəkil 4. I Adadnerarinin kitabəsindən fraqment.

Onun varisi I Salmanasar da bu tayfalar üzərində qələbəsilə öyünürdü [20, p.206-207]. Onun fraqmentar mətnlərinin birində "Lullumilərin ölkəsindəki" istehkam divarı ilə əlaqədar hurri-akkad komponentli "hibrid" isim – İriştienni, xatırlanır [18, p.21-22]. E.ə. I minilliyin əvvəllərində baş verən hərbi yürüşlər miqyasının genişliyinə və məqsədinə görə əvvəlkilərdən fərqlənirdi. Artıq Aşşur hərbi-siyasi dairələri qənimətlə kifayətlənmir, zəbt olunmuş torpaqlarda Aşşurmeyilli idarəçilik sistemi yaratmağa çalışırdılar. II Adadnerari (e.ə. 911-891) Aşşur dövlətinin qüdrətini nümayiş etdirmək məqsədilə müxtəlif istiqamətlərdə, o cümlədən Şərq cəbhəsində, uğurlu hərbi əməliyyatlar keçirməyə başlayır. Onun mətnində Aşşur qoşunlarının Kiçik Zab çayının qarşı sahilindəki lullumeylər ölkəsindən, Habhu və Zamuadan Namar ölkəsinin aşırımına qədər"

[7] Lullubilərə eyni vaxtlarda müxtəlif şəxslərin başçılıq etdiyi sonrakı minilliyin mətnləri ilə də təsdiqlənir. Məsələn, Aşşar çarı II Aşşurnazirapalın kitabəsində «Zamua ölkəsinin şahları» ifadəsi qeydə alınıb [25, s.364]. Aşşur hökmdarları dəfələrlə lullubi canişinlərindən (akkadca **awelu šakin**) və şəhər başçılarından (akkadca **bel pahati**) xərac aldıqlarını bildirmişlər [26, s.167].

keçdiyindən xəbər verilir. Aşşur şahı Zamuanı işğal etdiyi ölkələr sırasında sadalasa və oraya öz canişinini təyin etsə də yerli əhalinin müqavimətini qıra bilmədi. Bu dövrdən başlayaraq Zamua Aşşur müdaxiləsinə qarşı lullubilərin əsas müqavimət mərkəzinə çevrilir.

II Aşşurnazirapalın (e.ə. 883-859) hakimiyyətinin ilk illərində Zamuadakı lullubi məskənlərinə qarşı iri miqyaslı hərbi kampaniya başlayır (bax: şəkil 5).



Şəkil 5. II Aşşurnazirapalın Zamuaya hərbi yürüşü.

Zamuanın qərbində yerləşən Daqara vilayətinin aşşur isimli canişini (akkadca **nasiqu**) Nur-Adad yerli əhalinin qüvvəsi ilə Babite aşırımı (indiki Dərbəndi-Bazian) yaxınlığında təcili olaraq istehkam səddinin inşasına başlayır. Lakin Aşşur qoşunlarının qəfil hücumu işləri tamamlamağa imkan vermir. Nur-Adad dəstəsilə dağlara çəkilir və Aşşur qoşunları ciddi müqavimətlə qarşılaşmadan Birutu (akkadca "istehkam", "qala"), Uzi, Laqalaqa məskənlərini işğal edir və xeyli qənimət ələ keçirirlər. Hərbi əməliyyatların növbəti mərhələsi Nisir (lullubicə Kinipa; indiki Pir-Ömər-Qudrun=Pire-Maqrun) dağı rayonunda davam edir. Burada tayfa başçılarından Musasinanın və Kirtiaranın Bunais (və ya Bunisa, Bunasi) və Larbusa qalaları dağıdılır, xeyli sayda at, davar, qızıl və gümüş əşyalar, taxıl aparılır, əhalinin əmək qabiliyyətli hissəsi mükəlləfiyyətçi kimi tikinti işlərinə səfərbər olunur. Aşşurlulara müqavimət qöstərmədiklərinə görə Aşşur şahı Musasinanı və Kirtiaranı hakimiyyətdə saxlayır. Əvvəlki iqamətgahı dağıdıldığından Kirtiara Bara şəhərini özünə yeni paytaxta seçir. E.ə. 880-cı ildə aşşurlular Zamuanın cənubuna yürüş edirlər. Bu yürüş əvvəlkindən miqyasının genişliyi və amansızlığı ilə fərqlənirdi. II Aşşurnazirapalın salnaməsində Ammali şəhərinin hakimi Araştuanın, Hudun şəhərinin hakimi Sabininin, Kirtiaranın və Musasinanın məğlub edildiyi, məskənlərin dağıdıldığı, uşaqların tonqalda yandırıldığı, əhalinin sürgün olunduğu bildirilir.

Aşşurluların qəzəbindən qorxuya düşən Zamua hökmdarı Ameka sınanmış taktika seçərək dağlara çəkilir. Onun iqamətgahı Zamru şəhəri ətrafındakı 150 məskənlə birlikdə zəbt olunur, qaçmağa imkan tapmayanlar qətlə yetirilir, sərvəti talanır. Növbəti zərbə Nispi dağı ətrafında yerləşən Arzizu vilayətinə dəyir. Buranın hakimi Ata müqavimət göstərə bilmir, məskənləri viran edilir. Qorxuya düşən icma başçıları Zamuanın Arakdi şəhərində II Aşşurnazirapalın görüşünə gəlir, itaət rəmzi olaraq ona qızıl, gümüş, tunc qab-qacaq, rəngli parçalardan tikilmiş libaslar, mal-qara, at, şərab və s. gətirirlər. Zamua hakimləri vahid mərkəzdə birləşə bilmədiklərindən Aşşur ordusuna qarşı hər biri təklikdə mübarizə aparmalı olurdular. Onlardan ən qüvvətlisi Ameka mənbədə "hökmdar" (akkadca **šarrum**) adlansa da, kifayət qədər hərbi gücə və siyasi nüfuza malik deyildi. Aşşur qırğınlarından canlarını qurtaran zamualılar Mesu şəhərinə sığınırlar.

II Aşşurnazirapalın qoşunları ətraf kəndləri dağıdıb 500 döyüşçünü məhv edir. Lakin Aziru və Sima(ş)ki dağları arasında müdafiə üçün əlverişli mövqeyi olan Mesunun sakinləri təslim olmurlar. II Aşşurnazirapal Zamuanın işğal olunmuş hissəsində əyalət yaradır, dağıdılmış Atlila şəhərini "Dur-Aşşur" adlandıraraq yenidən bərpa etdirir və vergilərin yığılmasında nəzarət mərkəzinə çevirir [6, c.156-160; 21, Texts A.O.101.1; A.O.101.17; A.O.101.29; 4, s.23-27]. Zamua torpaqlarında yaradılmış yeni inzibati-ərazi vahidliyi aşşurluların gələcəkdə Şərq istiqamətində hərbi yürüşlərində dayaq məntəqəsinə çevrilir. E.ə. 855-ci ildə Aşşur şahı Şulmanuaşaredin (III Salmanasar) qoşunları Zamuanın Aşşur dövlətinin nəzarətində olmayan şimal-şərq hissəsinə basqın edirlər. Onun salnaməsində bu ərazilər "Daxili Zamua" (akkadca **Zamua ša bitanu**), yalnız bir halda **Mazamua** (bəlkə də lullubicə eyni mənanı verir) adlandırılır. Aşşurlular burada iki icma başçısının – Mektiara (və ya Nikdiara) və Nikdemanın dəstələri ilə qarşılaşırlar. Döyüşdən canlarını qurtaran lullubilər qayıqlarla Urmiya gölünü (mənbədə **tamti ša Zamua ša bitanu**) keçməyə çalışsalar da öldürülürlər. Urmiya gölünün cənubundakı Gilzan ölkəsinin şahı Asau (və ya Sua) "oğulları və qardaşları ilə birgə" III Salmanasarın görüşünə çıxır, at, dəvə, mal-qara və şərabdan ibarət xərac verməklə yaşayış məskənlərini talandan qoruyur.

E.ə. 843-cü ildə III Salmanasar yenidən "Daxili Zamuaya" dağıdıcı yürüş edir. 14 il sonra Aşşur orduları Dayan-Aşşurun komandanlığı ilə bu torpaqlardan keçməklə Manna çarlığının ərazilərinə daxil olurlar. Manna şahı Udaki (və ya Ualki) müqavimətin səmərəsiz olacağını nəzərə alıb paytaxt Zirtu şəhərini tərk edir; aşşurlular xeyli qənimət ələ keçirərək, şəhəri yandırırlar [6, c.160-163; 22, Texts A.O.102.2; A.O.102.6, A.O.102.14, A.O.102.16, A.O.102.28; 4, s.28-29].

Aşşurluların Zamuaya növbəti yürüşü V Şamşi-Adadın zamanında (e.ə. 823-811) baş tutur. Mutarris-aşşurun komandanlığı ilə baş tutan yürüş zamanı

Mektiaranın oğlu Şarsinanın nəzarətində olan 300 yaşayış məntəqəsi, o cümlədən Sunbi vilayəti viran qoyulur, əhalidən atlardan ibarət vergi alınır. Yürüşü təsvir edən mənbədə Mesu vilayətində əhalinin tərk etdiyi 500 yaşayış məntəqəsinin dağıdılması və qoşqu atlarının, dəvələrin, mal-qaranın və əsirlərin qənimət kimi Aşşura aparıldığı qeyd olunur [6, c. 164; 22, Text A.O.103.1; 4, s.32].

III Tiqlatpalasarın salnamələrindən məlum olur ki, e.ə. 730-cu illərdə Lullume və Mazamua vilayətləri Aşşur-dayan-anni adlı canişin tərəfindən idarə olunurdu [9, c.86]. Mazamua vilayəti Manna ölkəsi ilə sərhədlənirdi [4, № 20]. II Sarqonun zamanında (e.ə. 722-705) aparılan inzibati islahat nəticəsində qonşuluqdakı Karalla vilayəti Zamuanın tərkibinə qatılmışdır [4, s.43], Mazamua isə Mannanın əyalətinə çevrilmişdir.

«Lullume» və «Zamua» coğrafi termin kimi sonuncu dəfə e.ə. VII əsrin ortalarında qeydə alınsa da, bədii əsərlərdə **lullu** etnotermini anaxronizm əlaməti kimi şəhər mədəniyyətindən kənar topluma şamil olunurdu. Məsələn, «Gilqameş haqqında epos»da Enkidu Uruk şəhərinin hökmdarı Gilqameşlə tanış olana qədər sivil cəmiyyətdən kənarda, vəhşi heyvanlar arasında sərgərdan həyat keçirən qəhrəman kimi təsvir olunur və **lullaa awelu** «lullubi adamı» adlandırılır [12, c.134].

Lullubilərin yaratdığı ikinci güclü dövlət Simurru (və ya Şimurrum) idi. Dəqiq yeri bəlli olmayan bu ölkəni, adətən, indiki Altın-Köprü və ya Cəbəl-Hamrin yaxınlığında lokalizə edirlər [6, c.107, 117]. Lakin zənnimizcə onun adı Kerha çayının mənbəyindəki geniş düzənliyin müasir adında −«Seymərrə» (və ya «Seynmərre») formasında qalıb. Müəyyən dövrlərdə bu ölkənin ərazisi cənub-şərqdə Elam vilayəti Avan ilə kəsişirdi. Bu səbəbdən qədim sözlüklərdə «Simurru» və «Avan» eyni coğrafi məkanın iki fərqli (lullubi və elam mənşəli) adları kimi çıxış edirdi [32, ss.75-80]. Hurrilərin nə vaxtsa Zaqros silsuləsindən şərqdə məskunlaşdıqlarına dair faktların olmadığını da nəzərə aldıqda [6, c.98] Simurrunun hurrilərin ölkəsi olduğu haqqında söylənən fikirlər inandırıcı təsir bağışlamır. Simurruda, əsasən, lullubilərin məskunlaşdığı daha iki faktla da təsdiqini tapır.

1. Simurru ölkəsi şimalda Lullubi dövləti ilə sərhədlənirdi. III Ur-Şumer dövlətinin hökmdarı Şulgi 9 dəfə Lullubuma yürüş edərkən eyni vaxtda Simurrunu da viran qoymuşdur [6, c.117, прим.3].

2. Lullubi panteonunda Nişba dağı müqəddəs sayılır və ilahə görkəmində təqdim olunurdu. Simurru çşahları İnima-Nişba və Zabazuna ona sitayiş edirdilər [5, c.122]. Bu ilahənin adı İddin-Suenin Sarıpuldakı kitabəsində, Anubanininin mətnindən aşağıda həkk olunub (bax: şəkil 6) [4, s.13].

Simurru ilk dəfə Akkad sülaləsinin banisi I Sarqonun «il adları» ( və ya «tarixi formullar») kimi tanınan kiçik həcmli mətnlərinin Qədim Babil dövrünə

aid dublikatlarında xatırlanır. Bu mətnlərdə onun hakimiyyət illərindən biri «Simurruma yürüş ili» adlanır [24, s.5].



Şəkil 6. İddin-Suenin Sarıpulda qayaüstü barelyefi və mətni

Simurru hökmdarı Puttimadal Mari, Apişal, Namar, Marhaşi, Maqan və digər ölkələrin şahları ilə birləşərək Naram-Suenə qarşı hərbi ittifaq yaratmışdır. Bu ittifaqa qarşı yönələn döyüşlərin birində Kiraşenive adlanan yerdə Naram-Suen Simurrunun kahini Babanı əsir almışdır [24, s.22]. Şulginin hərbi yürüşləri Simurrunu xeyli zəiflətsə də, bu şahlıq bir müddət bölgənin siyasi həyatında əhəmiyyətini saxlayırdı. Simurru şahı İddin-Suenin oğlu Zabazuna[8] Bitvata adlanan yerdə (Süleymaniyyə-Raniyə yolunun üstündə; qədim adı Kulunum) üsyanın yatırılması şərəfinə və gələcəkdə sərhəd dirəyi rolunu oynayan yazılı daş sütun qoydurmuşdur [14]. Əvvəllər bu mətn səhvən Anubaniniyə aid edilirdi [4, № 2b]. Zabazunanın bizə 2 nöhürü çatıb. Möhürlərin üzərində onları düzəldənlərin isimləri yazılıb. Hər iki isim (Taheş-atal və Zili-ibri) hurri mənşəlidir.[9] Simurru çarlığının sonrakı aqibəti məlum deyil.

Etnik cəhətdən lullubilərə yaxın olduğu ehtimal edilən lallarip (**-p** sonluğu qonşuluqdakı elamlıların dilində etnik adlara əlavə olunan cəm şəkilçisi funksiyasını icra edirdi) tayfası Luristanın şimalında məskunlaşmışdı. E.ə. 881-ci il yürüşü zamanı II Aşşurnazirapal bu yerlərdə adı tayfa adı ilə üst-üstə düşən Lallu çayının axdığından xəbər vermişdi. E.ə. VII əsrinn ortalarında Elam

[8] Mətnlərdə onun ismi qarşısında "Tanrı" ideoqramı **AN** yazıldığından bəzi tədqiqatçılar hesab edir ki, bu ad "Anzabazuna" kimi oxunmalıdır. Digər tədqiqatçılara görə **AN** ideoqramı həmin şəxsin sağlığında ilahiləşdirildiyini göstərir.

[9] Mətnda: **Ta-he-eš-a-tal**, **[Z]i-li-ʿibʾ-ri** [16, p.715-716].

hökmdarı Temti-Humban-İnşuşinak bu tayfaya qarşı hərbi əməliyyatlar aparmış və onlardan xərac almışdır [27, s.170-171, §§ 79, 80].

Lullubilərin şimal-qərb qurupu Urartu tayfa ittifaqının yaxınlığında, Zab çayları hövzəsində yaşayırdı. Onlarin etnonimi buradakı oronimlərin birində (Lalar) əks olunub.[10] Bu qonşuluq hərbi münaqişələrlə müşayiət olunduğundan lullubilərin etnik adı Urartu kitabələrində xüsusi isim kimi "düşmən" mənasında işlənirdi [10, c. 134-135; 3].[11]

## ƏDƏBİYYAT


1. Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Müntəxəbat. Bakı, Turxan, 2014. 204 s.
2. Əlimirzəyev A. Anubanini // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2012, № 1, s.98-103.
3. Əlimirzəyev A. Lullubilərin və qutilərin etnik adlarına dair // Tarix, insan və cəmiyyət, 2017, 4 (19), s.86-93.
4. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S. Qaşqay). Bakı, Təhsil, 2006. 147 s.
5. Алимирзоев А. Борьба царей Кутиума за власть (К новой интерпретации старых источников) // Азербайджан и азербайджанцы, 2011, № 1-2, с.119-128.
6. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва- Ленинград. Издательство Академии Наук СССР, 1956. 483с.
7. Дьяконов И.М., Старостин С.А. Хуррито-урартские и Восточно-кавказские языки / Древний Восток. Этнокультурные связи. Москва, Главная редакция Восточной литературы, 1988, с.164-207.
8. Иванов В.В. Об отношение хаттского языка с северозападнокавказским / Древняя Анатолия. Москва, 1985, с.26-59.
9. Медведская И.Н. Древний Иран накануне империй (IX-VI вв. до н.э.). История Мидийского царства. Санкт-Петербург, Издательство «Санкт-Петербургское Востоковедение», 2010. 262 с.
10. Меликишвили Г.А. Древневосточные материалы по истории народов Закавказья. I. Наири-Урарту. Тбилиси, Издательство АН Грузинской ССР, 1954. 446 с.
11. Хрестоматия по истории древнего Востока. Часть вторая. Москва, Высшая школа, 1980. 256 с.


[10] I Tukulti-Ninurtanın mətnində bu dağın "Aşağı Zab çayının qarşı sahilində" yerləşdiyi bildirilir [4, s.21].

[11] Qohum hurri dilindən fərqli olaraq, Urartudakı biayni dilində eyni samit səsin təkrarlanması hallarına yol verilmədiyindən, etnotermin **lulu** formasında yazılırdı.

12. Эпос о Гильгамеше (Перевод И.М. Дьяконова). Москва-Ленинград, Литературные памятники, 1961. 214 с.
13. Юсифов Ю.Б. Ранние контакты Месопотамии с северо-восточными странами (Приурмийская зона) // Вестник древней истории, 1987, № 1, с.19-40.
14. Al Fuadi A.H. Inscriptions and Reliefs from Bitwata // Sumer, 1978, Vol. 34, pp.122-129.
15. Eidem J., Lossoe J. The Shemshara Archives. 1. The Letters. Kobenhavn, The Royal Danish Academy of Sciences and Letters, 2001. 185 p+88 plates.
16. Frayne D.R. The Royal Inscriptions of Mesopotamia. Early Periods. Vol. 4. Old Babylonian Period (2003-1595 BC). University of Toronto Press, 1990, 853 p.
17. Frayn D. R. The Royal Inscriptions of Mesopotamia. Early periods. Vol. 3/2. Ur III Period (2112-2004). University of Toronto Press, 1997. 489 p.
18. Gelb I. Sargonic Texts from the Diyala Region. Material for the Assyrian Dictionnary. № 1, Chicago, 1952. Pp. XVIII + 251.
19. Gelb I. Sargonic Texts in the Louvre Museum. Material for the Assyrian Dictionnary. № 4, Chicago, 1970. Pp. XXIV +143 + 25 plates.
20. Grayson A.K. Assyrian Royal Inscription (from the Beginning to Ashur-resha-ishi I). Wiesbaden, Otto Harrasowitz, 1972. 158 p.
21. Grayson A.K. Assyrian Rulers of the Early First Millennium BC. I (1114-859 BC). The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 2. University of Toronto Press, 1991, 425 p.
22. Grayson A.K. Assyrian Rulers of the Early First Millennium BC. II. (858-745 BC). The Royal Inscriptions of Mesopotamia. Assyrian periods. Vol. 3. University of Toronto Press, 1995, 265 p.
23. Grayson A., Sollberger E. L'Insurrection générale contre Narām-Suen // Révue d'Assyriologie et d'Archéologie Orientale. Paris, 1976, 70, pp. 103-128.
24. Hirsch H. Die Inschriften der Könige von Agade // Archiv für Orientforschung. Graz, 1963, № XX, Ss. 1-80.
25. Klengel H. Lullubum. Ein Beitrag zur Geschichte der altvörderasiatischen Gebirgsvölker // Mitteilungen des Instituts für Orientforschung. Berlin, 1966, № XI, Ss.349-371.
26. Klengel H. Lullu(bum) // Reallexikon der Assyriologie und Vorderasiatische Archāologie. Berlin, 1987-1990, Siebtet Band, Ss.164-168.
27. König F.W. Die Elamische Königsinschriften. Graz, Selbstverlag, 1965. 228 s.+44 tafel.
28. Millard A. R. A Royal Inscription about Lullumu // Annual Rewiev of the Royal Inscriptions of Mesopotamia Project. Vol. 30, 1985, p. 21-22.
29. Orientalistisches Rech. Handbuch der Orientalistik. Erste abteilung der Nahe und der Mittlere Osten. Leiden-Köln, Band 3, 1964. 398 s.

30. Potts D. T. The Archaeology of Elam. Formation and Transformation of an ancient Iranian state. Cambridge University Press, 1999. 480 p.
31. Studies on the Civilization and culture of Nuzi and the Hurrians. Vol. 4. Winona Lake, Eisenbrauns, 1993.
32. Weidner E. Simurru und Zaban // Archiv für Orientforschung. Graz, 1946-1951, Band 15, ss. 75-80.
33. Westenholz J. The Legends of the Kings of Akkad. The Texts. Winona Lake, 1997. 410 p.